*Azərbaycanın azad edilmiş torpaqlarında fəaliyyət göstərən bir çox Türkiyə şirkətlərinə öz təşəkkürümü bildirmək istəyirəm. Onların yorulmaz səyləri nəticəsində bu gün bu bölgədə yollar salınır, dəmir yolları çəkilir, tunellər tikilir, infrastruktur layihələri gerçəkləşir. Bu, bir daha bizim birliyimizin, qardaşlığımızın təcəssümüdür.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

*Azərbaycan bütün dünyaya örnək olacaq inkişaf modeli ilə Qarabağ bölgəsinin inkişafı üçün fəaliyyətini davam etdirir. Burada hər şeydən əvvəl təməlini qoyduğumuz, - bir az əvvəl cənab Prezidentin də dediyi kimi, - istər tunellər, istər yol ötürücüləri, istər avtomobil yolları bərpa işlərinin sürətlə həyata keçirilməsi baxımından çox önəmlidir. Bu fəaliyyətə liderlik edən İlham qardaşımı və əməyi keçən hər kəsi ürəkdən təbrik edirəm.*

*Rəcəb TAYYİB ƏRDOĞAN*
*Türkiyə Respublikasının Prezidenti*



# Qarabağ bu gün özünün yeni inkişaf mərhələsini yaşayır

***Azərbaycan dövləti bu gün Qarabağda ərazilərin bərpası və yenidən qurulması ilə bağlı layihələrin reallaşdırılmasını xüsusi diqqət mərkəzində saxlayır. Prezident İlham Əliyev tərəfindən hazırda erməni barbarlığının qurbanı olan yaşayış sahələrində mühüm strateji obyektlərin, müəssisələrin təməli qoyulur, tikinti işləri geniş vüsət alır, yüksək texnologiyaların tətbiqinə start verilir, Qarabağ bölgəsinin "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində önəmli tədbirlər gerçəkləşdirilir. Bu tikinti-quruculuq işlərinin böyük bir hissəsi isə qardaş Türkiyənin dəstəyi ilə icra olunur.***

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri çərçivəsində Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlinin qoyulması, eyni zamanda, dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış olmaları Vətən müharibəsindən sonra Azərbaycanla yanaşı, qardaş Türkiyənin də bu bölgənin inkişafına xüsusi önəm verməsini təsdiqləyir.

Xatırladaq ki, uzunluğu 81 kilometr nəzərdə tutulan Əhmədbəyli-Füzuli-Şuşa yolu altı-dörd cərgədən ibarət olacaq. Magistralın başlanğıcdan 51 kilometrlik hissəsi Azərbaycan şirkətləri, əllinci kilometrdən 81-ci kilometrə qədər hissəsi isə Türkiyənin "Kolin İnşaat" və "Çingiz İnşaat" şirkətləri tərəfindən çəkilir. Türkiyə şirkətlərinin fəaliyyət göstərdiyi hissədə 6 kilometr uzunluğunda tunel tikilir və 7 yol ötürücüsünün isə inşası nəzərdə tutulur. Tunellərin ümumi uzunluğu 6500 metrdir.

Hazırda Şuşa şəhərinin girişində olan biri 431 metr, digəri isə 530 metr uzunluğunda olan 4-cü və 5-ci tunellər artıq tikilib.

Azərbaycanda Toğanalı-Kəlbəcər yolunda ən böyük-11 min 600 metrlik Murovdağ tunelini "Çingiz İnşaat" inşa edir. Artıq həmin tunelin 350 metri qazılıb. Bundan başqa Qorçu aeroportunun 3,5 kilometrliyində Laçın-Kəlbəcər tuneli də var.

Ümumiyyətlə, Azərbaycanın Qarabağ bölgəsində Türkiyə şirkətləri tərəfindən 62 kilometr uzunluqda tunel tikilir. Bu gün Türkiyə şirkətlərində 6587 işçi çalışır. Onların 1832 nəfəri Türkiyə vətəndaşı, 4500 nəfəri isə Azərbaycan vətəndaşıdır. Bir sözlə, Qarabağda fəaliyyət göstərən şirkətlərdə 13 min 280 nəfər işləyir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri çərçivəsində təməli qoyulan yol isə Zəngəzur dəhlizi magistralıdır. Buradan Ağbəndə, Ermənistan sərhədinə qədər məsafə 123,6 kilometrdir.

Layihəyə əsasən bu yolun üzərində 3 tunel var. Uzunluğu 3610 metrdir. Hazırda Zəngilan ərazisində dördüncü tunel tikilir. Artıq 160 metr iş görülən həmin hissədə bütün yolu "Kalyon" şirkəti çəkir. Yolun üzərində Zəngilan hava limanı da yerləşir. Aeroporta gedən yolun 20 kilometrlik hissəsini "Kalyon" şirkəti ilə birlikdə Azərbaycan şirkəti inşa edir.

Magistralın üzərində rayon mərkəzləri ilə hava limanını birləşdirən 7 qovşaq tikiləcəyi də nəzərdə tutulub.

Əhmədbəyli-Füzuli mərkəzi yolu Zəngəzur dəhlizi magistralına birləşərək, Naxçıvana, oradan da İstanbula gedən yola qovuşacaq.

Göründüyü kimi, artıq bölgədə yeni nəqliyyat və infrastruktur xəritəsinin formalaşmasına başlanılıb. Təsadüfi deyil ki, Azərbaycan müstəqillik əldə etdikdən indiyədək Asiya və Avropanı birləşdirən yüksək əhəmiyyətli nəqliyyat dəhlizləri yaradıb. Məhz ölkəmizin təşəbbüsü ilə reallaşdırılan Şimal-Cənub, Şərq-Qərb və Cənub-Şimal nəqliyyat dəhlizləri qitələrarası daşınmaların həyata keçirilməsini gerçəkləşdirib. Bu nəqliyyat dəhlizləri istifadəyə verildiyi vaxtdan tarixi İpək yolunun bərpasında mühüm önəm daşıyıb.

Bütün bunlar deməyə əsas verir ki, Zəngəzur dəhlizinin reallaşması və ölkəmizin təqdim etdiyi digər tranzit nəqliyyat dəhlizləri dünyanın nəqliyyat xəritəsini yenidən formalaşdıracaq. Başqa sözlə, yeni yaranacaq nəqliyyat infrastrukturu beynəlxalq status qazanmaqla Asiya və Sakit okean hövzəsi ölkələrinin də istifadə edə biləcəyi marşruta çevriləcək.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri çərçivəsində qardaş ölkə rəhbərləri tərəfindən Zəngəzur dəhlizinin təməlinin qoyulması da təsadüfi deyil. Bu barədə dövlətimizin başçısı çıxışlarının birində deyib: "Zəngəzur dəhlizinin açılması İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Türkiyəni və Azərbaycanı dəmir yolu ilə, avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, bu dəhlizi əməli işlərlə yaradırıq. Müttəfiqlik haqqında imzalanan "Şuşa Bəyannaməsi"ndə də bu məsələnin əks olunması böyük məna daşıyır".

Türkiyə Prezidentinin Azərbaycana səfəri çərçivəsində Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi də tarixi hadisəyə çevrildi. Mərasimdə bildirildi ki, Qarabağın hava qapısı adlandırılan bu aeroport ən müasir səviyyədə inşa olunub. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanı var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib.

Beləliklə, ən müasir tələblərə cavab verən beynəlxalq hava limanının qısa müddətdə və yüksək keyfiyyətlə inşası Azərbaycan dövlətinin qüdrətini göstərməklə yanaşı, həm də işğaldan azad edilmiş rayonlarımızın tezliklə bərpa olunacağına, ora yenidən həyatın qayıtmasına dərin inam yaradır.

Bu hava limanının istifadəyə verilməsi, eyni zamanda, bölgəyə səfər edənlərin rahatlığını təmin edəcək, düşməndən təmizlənən torpaqlarımızda aparılan quruculuq işlərinin daha da sürətlənməsinə töhfə verəcək, Füzulinin, ümumilikdə bölgənin sosial-iqtisadi inkişafında müstəsna rol oynayacaq.

Hazırda Zəngilan və Laçında beynəlxalq hava limanları tikilir və onların inşası ilə regionun nəqliyyat imkanları daha da genişləndiriləcək.

Yeri gəlmişkən, dövlət başçılarına Cocuq Mərcanlıda açılacaq suvenir istehsalı müəssisəsinin fəaliyyəti barədə də məlumat verildi. "Cocuq Mərcanlının İnkişafı" Fondu, "TÜİB" və "TİKA"nın maliyyə dəstəyi ilə yaradılacaq müəssisədə adı çəkilən kəndin 25 sakini işlə təmin olunacaq.

Müəssisənin tikintisinə dövlət də öz dəstəyini verib. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin operatorluğu ilə şirkət təsis olunub, istehsal avadanlıqları alınıb və istehsalın təşkili üçün Türkiyədən mütəxəssislər cəlb edilib. Bundan əlavə, "TİKA"nın dəstəyi ilə 15 istixana yaradılıb. 15 ailənin çalışdığı istixanalarda lavanda və bibəriyyə bitkiləri, tərəvəz yetişdiriləcək.

Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olmaları da Qarabağın sürətli inkişafının parlaq ifadəsidir. Burada dövlət başçılarına verilən məlumat bölgənin yaxın gələcəkdə dünyada "Ağıllı diyar" kimi tanınacağına əminlik yaradır.

Layihənin icrası ilə tanış olan qardaş ölkələrin rəhbərlərinə bildirildi ki, burada 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ inşaat materialları əsasında tam izolyasiya olunan 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. "Ağıllı kənd"də müasir şəhərsalma standartlarının tətbiqi, piyada və velosiped yollarının çəkiləcəyi nəzərdə tutulur.

"Ağıllı kənd"də aqrar sahənin inkişafı prioritet vəzifə kimi qarşıya qoyulub. Elə buna görə də artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımı innovativ texnikaların siyahısı hazırlanıb. Burada müasir suvarma sistemlərindən istifadə olunacağı da qərarlaşdırılıb. Əkin planına əsasən müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılıb.

Prezidentlər tərəfindən Zəngilan rayonunda "Dost Aqropark"ın təməlinin qoyulması mühüm tarixi hadisəyə çevrildi. Dövlət başçılarına türk və azərbaycanlı sərmayədarların Zəngilanda həyata keçirəcəkləri adıçəkilən layihənin üç mərhələdə icra olunacağı barədə məlumat verildi.

Burada əvvəlcə inzibati binalar, qapalı və yarıaçıq heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, xidməti heyətin qalması üçün binalar tikiləcək. Kompleksdəki otlaq sahələrində 4 min baş cins qaramalın yetişdirilməsi, əkinçilik məhsulları istehsalı və digər fəaliyyətlər də həyata keçiriləcək. Bütün bunlar Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaq.

Layihə başa çatdıqda 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq.

Bununla yanaşı, bütün bölgəyə inteqrasiya olunan ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan kənd təsərrüfatı anbarı sistemi inşa ediləcək.

Kompleks, həmçinin bölgənin toxum, gübrə və kənd təsərrüfatı avadanlığına tələbatını ödəyəcək. "Dost Aqropark"da "Ağıllı kənd təsərrüfatı" texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulacaq. Aqropark tam işə düşdükdən sonra burada 500 nəfərə iş imkanı yaradılacaq.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*